

Məlumdur ki, Azərbaycan qadınlarının ölkəmizin ictimai-siyasi, mədəni həyatında rolunun artmasında, xüsusilə şəhid ailələrinin qayğı və problemlərinin həllində Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xüsusi əməyi vardır. Azərbaycanın birinci xanımı hər bir ananın, qız və gəlinin onların həyatda çətin anlarında ümid və pənah yeridir.

Azərbaycana xarici ölkələrdən təşrif buyuran qonaqlarla peşəm ilə əlaqədar tez-tez görüşməli oluram. Onlar dəfələrlə Azərbaycanda qadınların ictimai-siyasi həyatın bütün sahələrində bu qədər yüksək səviyyədə iştirakını təsəvvür etmədiklərini dilə gətirirlər və bundan çox məmnun qaldıqlarını bildirirlər.

Əcnəbiləri xüsusilə seçkilər prosesində azərbaycanlı qadınların həm seçki məntəqələrinin işinə fəal cəlb olunmaları, həm də bir yetkin vətəndaş olaraq, özünün seçmək və seçilmək hüququndan geniş istifadə etmələri yaxşı mənada təəccübləndirir.

# Qadınlar gözəllik və fədakarlıq rəmzidir

***8 Mart Beynəlxalq Qadınlar Günü sivil dünyanın hər yerində olduğu kimi, Azərbaycanda da dərin hörmət və ehtiramla qeyd edilir. Qadınlar həyatımızın bəzəyidir, bizim analarımız, bacılarımız, qızlarımız, həyat yoldaşlarımız, bir sözlə, sevgi və rəğbət, hörmət və ehtiram bəslədiyimiz insanlardır.***

Bu günlərdə kişilərimiz zərif cinsin nümayəndələrinə, təbii ki, gül, çiçək bağışlayır, yeniyetmə və gənclər öz sevdiyi qızlara, nişanlılarına bir daha qəlblərindəki ən munis arzularını dilə gətirirlər. Ən duyğusal sözləri isə kiçik uşaqlar öz analarına söyləyirlər: Sən dünyada ən gözəl anasan!

Azərbaycan xalqı qadına layiq olduğu böyük dəyəri verməyi, onun adını, şərəfini uca tutmağı bacaran xalqlardandır. Bizim ədəbiyyat və mədəniyyətimizdə ana, qız və gəlinlərimizin isməti, sədaqəti, fədakarlığı, vətənpərvərliyi və başqa nəcib xüsusiyyətləri ilə bağlı çox sayda həyati və bədii nümunələr var.

Dahi Nizamidən üzübəri xalqımızın bütün görkəmli mütəfəkkirləri Azərbaycan, türk qadınlarının gözəllik, fədakarlıq və qəhrəmanlıqlarını böyük məhəbbətlə təsvir və vəsf ediblər. Qadının bəşər tarixində ən böyük qiymətini Allahın sonuncu Peyğəmbəri Məhəmməd (s.ə.) verib: "Cənnət anaların ayaqları altındadır!"

Ölkəmizdə qadının cəmiyyətdə rolunun yüksəlməsinə böyük önəm verilir. Bizdə şəhid analarına, ahıl və qocalara daim xüsusi hörmət və diqqət göstərilib. Bu, ulu babalarımızdan üzü bəri belə olub və belə də qalacaq. Bunlar bizim milli-mənəvi, əxlaqi dəyərlərimizdir. Bu, bir danılmaz həqiqətdir ki, qadına, qıza, gəlinə hörmət cəmiyyəti mənən saflaşdırır, paklaşdırır.

Müstəqil Azərbaycanda milli dövlətçiliyimizin qurucusu Heydər Əliyev Vətənimizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhid analarına, onların həyat yoldaşlarına xüsusi diqqət və qayğı ilə yanaşırdı, bu ailələrin övladlarının yüksək səviyyədə təhsil almaları, layiqli işlərlə təmin olunmaları üçün hər cür şərait yaradırdı. Bununla bağlı bir misal çəkmək istəyirəm.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə erməni silahlı dəstələri Sədərək şəhəri istiqamətində hücum ediblər. Çox ağır döyüşlər olub. Bu qanlı qarşıdurmada Şərur rayon polis şöbəsinin əməkdaşı, leytenant Məhərrəm Seyidov böyük şücaət və qəhrəmanlıq göstərərək həlak olub.

O dövrdə Naxçıvan Ali Məclisinin sədri vəzifəsində işləyən Heydər Əliyev Məhərrəmin hüzn məclisində iştirak etmək üçün Sədərəyə gəlmiş, şəhidin valideynləri, eləcə də, onun dörd körpə övladının anası Şəkər Seyidova ilə görüşərək onlara təskinlik vermişdi.

Şəkər xanım dərin minnətdarlıq hissi ilə xatırlayır: "O zaman cəmi 24 yaşım vardı, mənə elə gəlirdi ki, bu ağır itkiyə dözə bilməyəcəyəm. Lakin Heydər Əliyev kimi dahi bir insanın belə bir ağır vaxtda ailəmizə həyan olması Məhərrəmin ata-anası üçün də, mənim üçün də böyük təsəlli oldu".

Qeyd etmək lazımdır ki, 1993-cü ilin yayında dahi siyasətçi Heydər Əliyevin xalqın israrlı təkidi Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkəmizdə dövlət səviyyəsində qadınlara diqqət və qayğı daha da artmışdır.

Xatırladaq ki, 1998-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə Azərbaycan qadınlarının birinci qurultayı keçirilmişdir. Ulu öndər qurultaydakı tarixi nitqində qeyd edib ki, bu qurultay başa çatmaqda olan əsrdə Azərbaycanın tarixində ən böyük hadisələrdən biridir. Azərbaycan qadınları bu qurultayla müstəqil ölkəmizdə demokratik cəmiyyətin, qadın hərəkatının əsasını qoydular.

Qurultaydan keçən qısa dövr sübut etdi ki, ölkədə qadın siyasətinin daha yetkin və dolğun şəkildə təşkil edilməsi üçün tələbat yaranmışdır. Məhz həmin tələbatı əsas götürən ulu öndər 2000-ci il martın 6-da "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman imzaladı. Fərmanın birinci bəndində göstərilirdi ki, Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması təmin edilsin.

Dahi siyasətçi Heydər Əliyevin xalqımızın parlaq gələcəyinə xidmət edən yolunu yeni meyarlarla zənginləşdirərək yüksək səviyyədə davam etdirən Prezident İlham Əliyev dövlət qadın siyasətinin yeni, daha böyük nailiyyətlərlə icrasını təmin edibdir. 2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması üçün dövlətimizin başçısı tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıbdır. Bu gün komitə böyük uğurla fəaliyyət göstərir.

Birmənalı şəkildə demək olar ki, bu gün Azərbaycanda gender bərabərliyinin təminatına dövlət qayğısı yüksək səviyyədədir. 2006-cı ildə Azərbaycanın qanunverici orqanında gender bərabərliyi haqqında qanun qəbul olunmuşdur. 2010-cu ildə isə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul edilmişdir.

Bəli, Azərbaycan qadınları bu gün ölkəmizdə sivil, demokratik dövlət quruculuğu sahəsində fəal iştirak edirlər. Qadınlar ölkəmizin idarəetmə sisteminin, demək olar ki, bütün sahələrində geniş təmsil olunublar. Azərbaycanın ali qanunverici orqanı – Milli Məclisdə, mərkəzi və yerli icra hakimiyyəti strukturlarında, məhkəmə orqanlarında qadınların iştirakı kifayət qədər artmışdır.

O cəmiyyət ədalətli və xoşbəxtdir ki, orada qadının şərəf və ləyaqəti qorunur. Müstəqil Azərbaycan xalqı və dövləti məhz belə bir cəmiyyət qurur. Azərbaycan dövləti son illər qadınların layiqli işlə təmin olunmaları, övladlarının və özlərinin sağlıq durumunun daim yaxşılaşdırılması, aztəminatlı ailələrin güzəranının yüksəldilməsi üçün düşünülmüş və ardıcıl işlər həyata keçirir. Ana və uşaqlara verilən müavinətlər ilbəil artırılır, körpələr və uşaqlı analar üçün nəzərdə tutulan imtiyazlar mütəmadi olaraq genişləndirilir.

2020-ci ilin payızında 44 günlük şanlı Vətən müharibəsində Tarixi Zəfər qazanan Azərbaycanın bütün vətəndaşları, eləcə də qadınlarımız hazırda özlərini xoşbəxt hiss edirlər və onlar buna tamamilə layiqdirlər. Axı, onlar doğma Qarabağı yağı düşməndən qanları, canları bahasına azad edən igid ərlərin, mərd, yenilməz əsgər və zabitlərimizin anaları, həyat yoldaşları və bacılarıdırlar. Bundan böyük səadət, əlbəttə yoxdur!

Azərbaycan qadını gözəl, isməti olduğu kimi, ağıllı, işgüzar və kreativdir. O, bu gün hər bir sahədə kişilərlə bərabər ağlı, zəkası, ailələsinə, övladına bağlılığı, Vətəninə sonsuz sədaqəti ilə ölkəmizin inkişaf və tərəqqisi naminə fədakarcasına çalışır.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***